BQXK

# Beynəlxalq Qızıl Xaç Komitəsi

# və

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti

# arasında

# Dağlıq Qarabağ Münaqişəsi ilə bağlı İtkin Düşmüş Şəxslərə dair Ətraflı Məlumat Toplanılması üzrə

# Əməli Layihə Müqaviləsi

## 1. Giriş

Ateşkəs elan edilməsindən 10 ildən çox vaxt keçməsinə baxmayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı itkin düşmüş 4000 nəfərdən çox şəxsin taleyinə hələ də aydınlıq gətirilmədiyini;

1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarına uyğun olaraq itkin düşmüş şəxslərin taleyinin həll edilməsi öhdəliyinin münaqişə tərəflərinin üzərinə düşməsi, bunun nəticəsi olaraq itkin düşmüş şəxslərin ailələrinin öz yaxınları barədə məlumat almaq hüququnun olmasını;

Münaqişə tərəflərinin müvafiq olaraq itkin düşmüş şəxslərin talelərinə aydınlıq gətirmək və ailələrin məlumat almaq hüquqları ilə bağlı öhdəlikləri öz üzərlərinə götürmək üçün arzularını bildirməsini;

Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001-ci il tarixli Sərəncamı (istinad N°536) ilə qüvvədə olan qanunvericiliyə əsasən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlar üzrə Dövlət Komissiyasının itkin düşmüş şəxslərin talelərinə aydınlıq gətirməyə dair mandatının olmasını;

2003-cü ilin dekabrında Qızıl Xaç və Qızıl Ayparanın Cenevrədə keçirilən 28-ci Beynəlxalq Konfransının itkin düşmüş şəxslərin talelərinə aydınlıq gətirmək üçün hökumətlərin, hərbi, milli və beynəlxalq təşkilatların - bütün dünya üzrə Qızıl Xaç və Qızıl Aypara şəbəkəsi də daxil olmaqla – səylərinin artırılmasına ehtiyac olduğunu bir daha təsdiq etdiyini;

BQXK-nın 31 yanvar 2005-ci ildə təqdim etdiyi *Dağlıq Qarabağ Münaqişəsi ilə bağlı İtkin Düşmüş Şəxslərin Məsələsinə dair BQXK Memorandumunun* həyata keçirilməsi üzərində işləməyi münaqişə tərəflərinin prinsipcə qəbul etməsini;

Münaqişə tərəflərinin tezliklə təşkilinə başlayacağı insan qalıqlarının aşkar edilməsi və şəxsiyyətlərin müəyyən olunması prosesində vacib addım hesab edilən Ante Mortem Data (AMD) məlumatların toplanılmasını həyata keçirmək üçün səlahiyyətli orqanların BQXK-nın dəstəyini qəbul etdiyini;

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) sırf humanitar rolu və tamamilə humanitar məqsədinə rəğmən, BQXK-nın dəstəyi və Azərbaycanın səlahiyyətli orqanları ilə razılaşdırılaraq, Azərbaycan Respublikasının ərazisində itkin düşmüş şəxslərin ailələrindən İtkin Düşmüş Şəxslərə dair Ətraflı Məlumat Toplanılmasını həyata keçirməyə razılaşdığını;

BQXK-nın ümumi təşkilatçılıq və nəzarətə cavabdeh olacağını və layihə üçün texniki yardım və ekspertizanı təmin edəcəyini *nəzərə alaraq*

Azərbaycan Respublikası ərazisində Dağlıq Qarabağ Münaqişəsi (bundan sonra Münaqişə adlandırılacaq) ilə bağlı İtkin Düşmüş Şəxslərə dair Ətraflı Məlumat Toplanılması üzrə bu Əməli Layihə Müqaviləsi, AzQAC və BQXK arasında bağlanılır.

Bu Əməli Layihə Müqaviləsində işlədilən "Tərəflər" sözü AzQAC və BQXK-ya istinad edir.

Tərəflər bu Əməli Layihə Müqaviləsini Beynəlxalq Qızıl Xaç və Aypara Hərəkatının fundamental prinsipləri və nizamnamələri, eləcə də istinad mənbəyi kimi işlədiləcək Sevil Razılaşması/Əlavə Tədbirlərə uyğun olaraq bağlayırlar.

Hazırda davam edən əməkdaşlıq fəaliyyətindən əlavə, Tərəflər münaqişə nəticəsində itkin düşmüş şəxslərin məsələlərinin həllinə ünvanlanmaq və aidiyyatı olan ailələri və təsirə məruz qalmış mülki əhalini maksimum dərəcədə dəstəkləmək üçün öz qüvvə və resurslarını birləşdirirlər.

## 1. Məqsəd

Bu müqavilənin məqsədi ƏMT-nin məqsədlərinin və bu layihənin necə həyata keçiriləcəyinin: resurslar, ümumi iş metodları, koordinasiya, AzQAC və BQXK-nın rol məsuliyyətlərinin ümumi anlamını təmin etməkdir.

AzQAC və BQXK-nın barəsində razılaşdıqları və həyata keçiriləcək Fəaliyyət Planı və prosedurlar bu Əməli Layihə Müqaviləsini tamamlayaraq onun ayrılmaz hissəsi olacaq. (Əlavə İ-ə baxın).

## 2. Layihənin ümumi təsviri və vəzifələr

Bu layihənin məqsədi Azərbaycan Respublikasının ərazisində münaqişə ilə bağlı itkin düşmüş şəxslərin şəxsiyyətlərinin insan qalıqları üzrə müəyyən olunmasına kömək üçün Ətraflı Məlumat Toplanılmasını sistematik şəkildə həyata keçirməkdir.

Layihə aşağıdakı müxtəlif mərhələlərdən ibarətdir:

- məlumatın toplanılması və idarə edilməsinə məsul olan işçi heyəti və könüllülərin müvafiq təliminin hazırlanması və təşkili
- Ailələr və icmalara məlumat yayımı
- Bütün ailələrlə əlaqə saxlanılması və ƏMT-nin sistematik olaraq toplanılması
- Hesabat verilməsi
- Toplanılmış məlumatın keyfiyyətinə nəzarət və etibarlılığı

Bu layihə bütün itkin düşmüş şəxslərə aid ƏMT-nin toplanılması və bu barədə hesabatın toplama prosesindən əvvəl və ya prosesin özü zamanı verilməsi ilə başa çatmış olur.

Bütün yayım fəaliyyətləri və itkin düşmüş şəxslərin ailələri ilə əlaqələr zamanı Tərəflərin istinad etdiyi AMD rəsmi termin olaraq Ətraflı Məlumat Toplanılması (ƏMT) kimi işlədiləcək.

3.1 Ümumi vəzifə

BQXK-nın dəstəyi ilə AZQAC münaqişə ilə bağlı itkin düşmüş şəxslərin həyatına dair məlumat toplayır. Bununla əlaqədar AzQAC şəbəkəsi və yerlərdəki nümayəndəliklərinin mövcudluğu itikin düşmüş şəxslərin ailələri ilə bu işin aparılması üçün ən səmərəli vasitədir. Bu əməkdaşlıq vasitəsilə AzQAC

ƏMT-yə dair spesifik bilgilər əldə edəcək, ölkənin bütün rayonlarında fəaliyyətini daha aydın nəzərə çarpdıracaq və gücləndirəcək.

3.2 Konkret vəzifələr

1. BQXK-nın texniki, maddi dəstəyi və sıx əməkdaşlığı sayəsində AzQAC ƏMT-ni həyata keçirmək potensialına (təlim verilmiş işçi heyəti və vasitələr daxil olmaqla) malik olur.
2. Qızıl Xaç və Qızıl Aypara Hərəkatının resursları Tərəflər arasında səmərəli şəkildə istifadə və koordinasiya edilir.

## 4. Koordinasiya

4.1 Resursların boş-boşuna sərf edilməsinə və fəaliyyətlərin təkrarlanmasına yol verməmək məqsədilə, habelə maksimum şəkildə birgə fəaliyyət göstərməyə nail olmaq marağı baxımından Tərəflər spesifik kordinasiyaya xüsusi əhəmiyyət verirlər. Onlar benefisiarların maraqlarına ən yaxşı şəkildə cavab verməklə ümumi məqsədə çatmağa çalışacaqlar.

4.2 Bu Əməli Layihə Müqaviləsinin icrası məsələlərini proqnozlaşdırmaq, fəaliyyətin monitorinqi üçün ƏMT-nin koordinasiyasına dair iclaslar ƏMT-dən əvvəl və bu prosesin özü zamanı müntəzəm olaraq Tərəflərin müəyyən etdikləri vaxtlarda keçirilməlidir (Əlavə İl-yə baxın). BQXK-nın Regional Axtarış üzrə nümayəndəsi və ƏMT koordinatoru bu görüşlərin qısa protokolunu növbəli şəkildə hazırlayaraq lazımi qaydada əməl olunması üçün bütün aidiyyatı olanlara yayacaqlar.

4.3 ƏMT-nin başlanması ilə Tərəflər Bakı və ya Bərdədə AzQAC-ın ƏMT könüllü dəstələri üçün aylıq iclaslar keçirəcək. İclaslarda ƏMT könüllülər komandalarının iştirakı xüsusilə vacibdir (Əlavə İl-yə baxın) və bu ƏMT-nin həyata keçirilməsində forum rolunu oynayacaq, yerlərdə könüllülər tərəfindən doldurulmuş bütün ƏMT sorğu anketlərini mərkəzləşdirərəcək və könüllülərin fəaliyyət planlarını bir daha nəzərdən keçirəcək.

4.4 Mətbuatla əlaqə yalnız Tərəflərin sıx əməkdaşlığı və BQXK-nın rəhbərliyi altında saxlanıla bilər.

- Layihənin fəaliyyəti ilə bağlı pres relizlər müəyyən olunmuş minimum standart məlumatı əhatə edəcək və BQXK ilə sıx əməkdaşlıqla həyata keçiriləcək.

- Bu layihə ilə bağlı mətbuat konfransları yalnız BQXK ilə sıx əməkdaşlıq edilərək keçiriləcək.

## 5. AzQAC-ın məsuliyyətləri

AzQAC, BQXK-nın dəstəyi ilə, ƏMT-nin icrasını təmin etməyə məsuldur. AzQAC aşağıdakı məsələlər üzrə BQXK ilə sıx əməkdaşlıq edərək işləyəcək:

5.1 Bu müqavilənin icrasına ümumi cavabdehliyi AzQAC ƏMT Koordinatoru ilə əlaqələndirilməklə AzQAC-ın İcraçı Katibinə tapşırmaq;

5.2 Bu müqavilə üzrə razılaşdırılmış şərtlərə, habelə iş planı və proseduralara uyğun olaraq Əməli Layihə Müqaviləsini həyata keçirmək (Əlavə İ-Vİ-ya baxın);

5.3 Təyin olunmuş aparıcı şəxslər: ƏMT Koordinatoru, məlumat, yayım, axtarış, gənclər və könüllülər şöbələrinin müdirləri daxil olmaq, lakin bu şəxslərlə məhdudlaşdırılmamaqla AzQAC-nin baş ofisi və nümayəndəlikləri səviyyəsində müvafiq şöbə və kadrları ƏMT-nin müxtəlif mərhələlərinin səmərəli icrasını təmin etmək üçün çatımlı etmək;

5.4 Koordinasiya iclasları zamanı razılaşdırıldığı kimi Layihənin tələblərinə uyğun olaraq yerli olaraq verilən töhfə, AzQAC-ın könüllüləri və digər dəstəkverici resursları təmin etmək (Əlavə İl-yə baxın);

- *ƏMT məlumat toplayanlar könüllülər komandasının tərifi:* Azərbaycanı bütövlükdə və ya bir hissəsini əhatə edən *əvvəlcədən müəyyən* edilmiş ərazidə fəaliyyət göstərən AzQAC könüllüləri kimi müəyyən edilir (Əlavə İl-yə baxın). ƏMT könüllülər komandaları BQXK-nın işçi heyəti və ƏMT koordinatorunun nəzarəti altında Azərbaycanın bütün rayonlarında hər biri iki nəfərdən ibarət komanda olaraq işləyəcəklər.

5.5 Bu layihə ilə əlaqəli bütün işçi heyət və könüllülərin ölkənin qüvvədə olan qanunlarının müvafiq maddələrinə uyğun olaraq işləməsini təmin etmək;

5.6 BQXK ilə sıx əməkdaşlıq edərək mediya məlumatlarının hazırlanmasında iştirak etmək, yerli icma və ailələrə layihə və itkin düşmüş şəxslərə dair məlumatın çatdırılmasını təmin etmək (Əlavə İlI-ə baxın).

- Öz yayım fəaliyyətlərinin bir hissəsi kimi regional mərkəzlər və yerli ofislər aidiyyatı olanları lazımi şəkildə fəallaşdırmaq və bu prosesə cəlb olunmağa imkanları olması üçün ƏMT-ni fəal şəkildə icmalarda yayacaqlar.

- BQXK-nın verdiyi materialların yayımını AzQAC təmin edəcək.

5.7 BQXK-nın dəstəyi ilə AzQAC məlumat toplayan şəxslərə təlim verilməsində iştirak edəcək.

5.8 Məlumatın müdafiə olunması və məxfiliyi üzrə qəbul edilmiş prinsiplərə uyğun olaraq ƏMT-nin toplanılması və idarə olunması 2003-cü ilin fevralında keçirilmiş İtkin Düşmüş Şəxslərə dair Beynəlxalq Cenevrə konfransında göstərildiyi kimi təmin etmək:

*"Şəxsi məlumat" şəxsiyyəti müəyyən edilmiş və yaxud şəxsiyyəti müəyyən edilə bilən fərdə dair istənilən məlumat deməkdir. Bu cür məlumatlar bəzi qeyri-müvafiq hallar istisna təşkil etməklə fərdin razılığı ilə ədalətli və qanuna müvafiq şəkildə toplanılmalı və işlədilməlidir. Şəxsi məlumatın toplanılması və işlədilməsi məlumat prosesinin gedişi zamanı və ya ondan əvvəl müəyyən edilmiş məqsədin tələb etdiyi həddə qədər məhdudlaşdırılmalıdır. Məlumatın həssaslığına müvafiq olaraq şəxsi məlumat təhlükəsizlik vasitələri ilə qorunub saxlanılmalıdır. İctimai maraq və ya aidiyyatı olan və ya başqa şəxslərin mühüm maraqlarının müdafiəsi tələbləri istisna təşkil etməklə aidiyyatı olan şəxsin icazəsi olmadan məlumat başqa məqsədlər üçün işlədilməməli, açıqlanmamalı və ya ötürülməməlidir.*

5.9 Bu Əməli Layihə Müqaviləsinin müddəti ərzində toplanılmış məlumatın BQXK-ya vaxtı-vaxtında ötürülməsini və məlumatın məxfiliyinə hörmət edilməsini təmin etmək. Habelə toplanılmış məlumatların surətinin çıxarılmamasını təmin etmək.

5.10 Bu Layihə çərçivəsində hər ayın və/və ya rübün sonunda bir həftə ərzində ƏMT-nin toplanılmasına dair həftəlik/aylıq nəqli və statistik hesabatların hazırlanmasını və bütün Tərəflərin razılaşdığı formatda BQXK-ya təqdim olunmasını təmin etmək.

5.11 Bütün Tərəflərin razılaşdığı format və prosesə uyğun olaraq Əməli Layihə Müqaviləsinin yekununda layihənin qiymətləndiriilməsində iştirak etmək.

5.12 Monitorinq və məlumat mübadiləsi və cavab reaksiyası məqsədi ilə hazırkı birgə layihə ilə bağlı sənədləşmə, kadrlar və yerlərə BXQK-nın tam çatım imkanı olmasına təminat vermək.

## 6. BQXK-nın məsuliyyətləri

BQXK, AzQAC ilə sıx əməkdaşlıq və tam şəffaflıq şəraitində, ƏMT-nin planlaşdırılması və həyata keçirilməsinin ümumi koordinasiyasına məsuldur. Daha konkret şəkildə, BQXK aşağıdakıları edəcək:

6.1 Bu Əməli Layihə Müqaviləsinin icrasına cavabdehliyi Müdafiə İşləri üzrə Əlaqələndirici ilə koordinasiya edilməklə Azərbaycandakı Regional Axtarış üzrə Nümayəndəyə tapşırmaq.

6.2 Məlumat toplayan şəxslərin ilkin təlimini və lazım gələn vaxt və yerdə əlavə məsləhəti təmin etmək. Yuxarıda qeyd olunan təlimə dəstək və yerlərdə könüllülərin iş prosesində istinad edəcəkləri stolüstü kitab kimi təlim vəsaitini təmin etmək.

6.3 Təklif olunan planlaşdırma, təşkilati iş və iş prosedurаları formasında AzQAC-a təlimat və texniki yardımı təmin etmək (Əlavə İ-Vİ-ya baxın).

6.4 Qarşılıqlı şəkildə razılaşdırılmış Fəaliyyət Planı və büdcə çərçivəsində lazımi maliyyə vəsaitlərini təmin etmək (Əlavə İ-ə baxın).

6.5 AzQAC ƏMT Koordinatoru ilə bilikdə ƏMT prosesi ərzində keyfiyyətə nəzarət və monitorinqi təmin etmək.

6.6 yerlərdə ƏMT anketlərinin lazımi şəkildə doldurularaq müntəzəm şəkildə toplanılmasını təmin etmək üçün ƏMT Koordinatoru ilə birlikdə təlimi, nəzarət və etibarlılığı təmin etmək.

6.7 Müəyyən olunmuş yayım materiallarını işləyib hazırlamaq və AzQAC-ın yayması üçün çatımlı etmək.

- BQXK-nın yayım işlərinə məsul şəxs AzQAC-ın məlumat və yayım şöbəsinin rəhbərini göstərişlər və texniki məsləhətlə dəstəkləmək.

6.8 BQXK və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlar üzrə Dövlət Komissiyası arasında ayrıca bağlanılmış çərçivə sazişində razılaşdırıldığı kimi tamamlanmış ƏMT Anketlərinin Dövlət Komissiyasına təhvil verilməsini təşkil etmək. Dövlət Komissiyası məlumatın saxlanılması və idarə edilməsinə məsuldur.

## 7. Maliyyə idarəetməsi

Maliyyə idarəetməsi Əlavə İl-də verilən və bu müqavilənin ayrılmaz hissəsi hesab olunan Qızıl Xaç və Qızıl Aypara Fəlakərlərə Yardım Prinsipləri və Qaydalarında (Qızıl Xaç və Qızıl Ayparanın 26-cı Beynəlxalq Konfransı) təsvir olunan cavabdehlik prinsipinə uyğun olmalıdır:

7.1 Bu Layihə ilə bağlı bütün vəsaitləri BQXK, AzQAC tərəfindən xüsusi olaraq BQXK əməliyyatları üçün açılmış bank hesabına köçürəcək.

7.2 İş vəsaitlərinin (avanslarının) ödənilməsi aylıq əsasda olacaq. Bunlar BQXK və AzQAC arasında qabaqcadan müzakirə edilərək təsdiq olunmuş təfsilatlı fəaliyyət planı və əhatə etdiyi hər növbəti müddətə aid büdcə əsasında olacaq. Bütün xərclər təsdiq edilmiş büdcə ilə üst-üstə düşməlidir.

7.3 Hər hansı yeni iş vəsaiti köçürülməzdən əvvəl, əvvəlki dövr üçün köçürülmüş vəsait balanslaşdırılmış müvafiq (bank) sənədlər ilə birlikdə qısa nəqli və maliyyə hesabatı ilə tam şəkildə izah olunmalıdır. Müstəsna olaraq, yerlərdə fəaliyyətin dayandırılmaması üçün hər yeni ayın başlanğıcında BQXK həmin aya aid olan vəsaitin 60%-ni köçürməyi nəzərdən keçirə bilər. Qalan 40% AzQAC əvvəlki ay üzrə xərclərin hesabatını tamlığı ilə verdikdə köçürülə bilər. Ancaq bu xərclərin hesabatı müddəti iki həftədən artıq ləngiyə bilməz. Belə olduqda həmin vaxtda həyata keçirilən fəaliyyətlər barədə məlumat verilməlidir.

7.4 ƏMT könüllülər komandaları müəyyən olunmuş təlim dövründə başqa vəzifələrdən azad edilməli və təlimdə tam iştirak etməlidirlər. ƏMT könüllülər komandaları AzQAC-ın işçiləri və ya könüllüləri olaraq qalırlar və BQXK-nın maliyyə dəstəyi BQXK tərəfindən işə götürülmə demək deyildir .

7.5 <u>Təlim Proqramı</u>
BQXK müəyyən olunmuş vəzifələrə və təsdiq olunmuş Fəaliyyət Planına uyğun olaraq ƏMT könüllülərinin təlim xərcləri üçün cavabdehdir (Əlavə I, İV, V). Təlim sesiyaları üçün BQXK-nın ekspert heyəti (Məhkəmə-tibb məsələləri üzrə məsləhətçi, psixoloq-məsləhətçi, axtarış üzrə nümayəndə və digər BQXK heyəti) hazır olacaq.

7.6 <u>Ətraflı Məlumat Toplanılması prosesi</u>
BQXK lazımi qaydada doldurulmuş ƏMT Anketi üçün razılaşdırılmış həvəsləndirici məbləğin AzQAC baş ofisi vasitəsi ilə ödənilməsi üçün cavabdehdir. Ödəniş yalnız ƏMT formasının nəzərdən keçirilməsi və qəbul edilməsindən sonra edilə bilər (Əlavə İV).

7.7 <u>ƏMT Koordinatorunun Məvacibi</u>
BQXK hər ay ƏMT koordinatorunun məvacibi üçün 300 AZM məbləğində yardım ödəyəcək. İşin yerinə yetirilməsi üzrə mükafat ƏMT koordinatorunun işin ümumi yerinə yetirilməsi nailiyyətindən asılı olaraq ilin sonunda və iş təlimatına uyğun olaraq nəzərdən keçirilə bilər (əlavə Vİ baxın).

7.8 BQXK məlumat toplanılması zamanı ailə üzvləri üçün razılaşdırılmış əsas təchizat məbləğini lazımi sənədi (çek, qəbz) almaqla ödəyəcək (Əlavə İV).

## 8. Kadr idarəetməsi

8.1 Bu Əməli Layihə Müqaviləsi fəaliyyətlərinin həyata keçirilməsi üçün kadrlar və/və ya könüllülərin işə götürülməsi, idarə olunması və haqqının ödənilməsi tam AzQAC-ın məsuliyyətidir. BQXK məsləhət üçün həmişə hazırdır. Milli Cəmiyyət layihə fəaliyyətlərinin həyata keçirilməsinə cəlb olunmuş kadrların ümumi xərclərini nəzərdən keçirir. Belə xərclərin ödənilməsi üçün müvafiq məsuliyyət Tərəflər arasında razılaşdırılır və müvafiq olaraq büdcədə əks olunur.

8.2 BQXK-nın bu müqavilə çərçivəsində etdiyi kadr xərcləri ilə bağlı bütün ödənişlər AzQAC-a edilən kompensasiya hesab olunacaq.

8.3 AzQAC-ın kadrları BXQK-dan birbaşa ödəniş edilməsini tələb edə bilməz.

8.4 Bu müqavilə başa çatdıqda bu proqramın bitməsindən narahat olan işçi heyəti və könüllüləri vaxtında xəbərdar etmək və onların AzQAC ilə bağlı gələcəkləri barədə məlumatlatdırmaq AzQAC-ın vəzifəsidir.

## 9. Yekun müddəalar

9.1 Bu ilkin Əməli Layihə Müqaviləsi imzalandığı tarixdə qüvvəyə minir və 31. 12.2008-ci il tarixində müddəti başa çatır. Bu Əməli Layihə Müqaviləsinin həyata keçirilməsi hesab olunacaq. Müqavilənin uzadılması ƏMT-yə dair Əməli Layihə üzrə Müqaviləsinin ümumi ikitərəfli spesifik qiymətləndirilməsi və BQXK-nın institutsion tələbləri əsasında olacaq.

ƏMT –ni həyata keçirən könüllülər komandalarına təlim verilməsi və ƏMT prosesinin özü 2008-ci ildə başlayacaq. Bundan əvvəlki dövrdə AzQAC ƏMT Koordinatoru, baş ofisinin heyəti, AzQAC Məlumat/Yayım şğbəsi və Axtarış xidmətləri hazırlıq işində (Fəaliyyət Planının təşkili və s. kimi əlavələrə əsasən) iştirak etməyə dəvət olunacaq.

9.2 Tərəflər bu müqavilənin əməli xarakterli olduğunu təsdiq edirlər. Bu müqavilə ilə bağlı əlavə məsələlər meydana çıxdığı zaman müzakirə olunacaq və hazırkı müqaviləyə və ya əlavə edilmiş fəaliyyət planına dəyişikliklər AzQAC Prezidenti və BQXK-nın Azərbaycan Nümayəndəliyinin Başçısı ilə razılaşdırılaraq ediləcək. Əlavə maliyyə məsələləri BQXK ilə yazılı şəkildə raşılaşdırılmalı və təsdiq edilməlidir.

9.3 Bu Əməli Layihə müqaviləsi və onun əhatə etdiyi layihə ehtiyacların inkişafına uyğun olaraq yenidən nəzərdən keçirilə, uyğunlaşdırıla və uzadıla bilər.

9.4 BQXK bu müqavilənin həyata keçirilməsi müddətində BQXK-nin üzvü olmayan şəxslərin məruz qaldığı hər hansı ölüm və ya yaralanma hallarına görə məsuliyyət daşımır.

9.5 Fors major: Fors major halında bu müqavilə qüvvədən düşmüş olur.

9.6 Bu Əməli Layihə Müqaviləsinin şərtlərinin həyata keçirilməsində hər hansı çətinlik meydana çıxdıqda Tərəflər dərhal bir-biri ilə məsləhətləşəcəklər. Tərəflərdən hər hansı birinin Əməli Layihə Müqaviləsinin şərtləndirilən vaxtdan əvvəl xitamına qərar verməsi digər tərəfə rəsmi olaraq yazılı şəkildə bir ay qabaqcadan səbəbini izah etməklə edilməlidir. Layihənin gələcəyini müdafiə etmək məqsədilə məsləhətləşmə və həllinə təşəbbüs göstərilməlidir.

Fikir ayrılığı olduqda müqavilənin ingiliscə mətni yeganə rəsmi nüsxə hesab olunur.

9.7 Bu Əməli Layihə Müqaviləsi Tərəflərin yalnız ƏMT üçün birgə partnyorluğuna istinad edir. BQXK və AzQAC arasında bağlanan bütün başqa müqavilələr qüvvədə qalır.

9.8 Bu Saziş dörd nüsxədə (ikisi ingilis və ikisi Azərbaycan dilində) imzalanmış və müxtəsər imza qoyulmuşdur. Sazişin iki nüsxəsi Azərbaycan QAC-də, digər iki nüsxə BQXK-də qalır.

Əlavə edilmiş Fealiyyət Planı (Əlavə 1), İştirakçıların Rolları və Koordinasiya (Əlavə2), Yayım Strategiyası (Əlavə 3), BQXK-nın ödədiyi xerclər (Əlavə 4), Ətraflı Məlumat Toplamaq üçün işə götürülən şəxslərə qoyulan tələblər (Əlavə 5) və ƏMT Koordinatorunun vəzifə təlimatı (Əlavə 6) bu Əməli Layihə Müqaviləsinin ayrılmaz tərkib hissələridir.

AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ AZERBAIJAN RED CRESCENT SOCIETY

COMITE INTERNATIONAL GENEVE

Tarix : 18.04.08      18.04.08

İmza :

Azərbaycan QAC adından
Cənab. Novruz Aslanov
Prezident

BQXK adından
Cənab. Martin Amaşer
Nümayəndəliyin Başçısı